# 100 İL ÖNCƏ ÇIXILAN YOLDA FƏTH ETDİYİMİZ ZİRVƏ






O zirvənin adı qoyulmamışdı, bu günə qədər o məkana yol yox idi. Bizi həmin yüksəkliyin fəthinə sövq edən güc və iradə onu Cümhuriyyətimizin yüz yaşı şərəfinə adlandırmaq arzumuzu gerçəkləşdirdi. Cümhuriyyət arzusu 100 il öncə başlanan bir yolun nəticəsi idi – bu, Azərbaycan yolu idi. Ötən əsrin əvvəllərində Azərbaycanın azadlığı, müstəqilliyi uğrunda mücadiləyə qalxanlar gün gəldi ki, 28 may 1918-ci ildə məqsədlərinə nail oldular.

Fotoda gördüyünüz bu insanlar da güclərini, iradələrini, birliklərini, DÖVLƏT, VƏTƏN və CÜMHURİYYƏT sevgilərini birləşdirərək MÜSTƏQİL bir yola çıxdılar, bu, böyük bir CÜMHURİYYƏT yolu idi. Yükləri ağır olsa da, çəkisini hiss etmədən, yolları çətin, sıldırımlı olsa da, maneələrə baxmayaraq, Zirvəyə çatdılar və ona "CÜMHURİYYƏTİN 100 İLLİYİ" adını verdilər. Bəli, bizə birlik yaraşır, bizə 100 il öncə təməli qoyulan bir dövlətin davamçıları olaraq dövləti sevmək, xalqa xidmət etmək və bu cür çətin yolları keçərək CÜMHURİYYƏTİMİZİ hər zaman zirvələrdə saxlamaq yaraşır.



Bu zirvə Heydər Əliyev Fondunun təşəbbüsü, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Azərbaycan alpinistləri İlqar İsrafilov, Babək Orbanlı, İlqar Məmmədov, Sima Qasımova, Xınalıq sakinləri və yürüş iştirakçıları Nərgiz Qurbani (RİİB), Nərmin Carçalova, Zaur Mirzəyev, Elman Məmmədov (BMM) tərəfindən fəth olunmuşdur.

*İdeya və layihə rəhbərləri: Sirxan Məmmədov, Elçin Quliyev*
*Büstü hazırlayan: Əməkdar rəssam Azad Əliyev*
*28 may 2018-ci il, Quba, Tufandağ silsiləsi, 37*




Elçin Quliyev
İlham Fətəliyev